Ədəbiyyat qəzeti

## 20 dekabr unudulmaz Nurəngiz Günün anım günüdür



# NURƏNGİZ GÜN

### *Torpaq yuxularım*

Qayıtdım bu torpağa.
Bu torpağa dönüncə
dizlərim titrəyir...
Bu torpağın önündəyəm
Eləcə mil durmuşam,
dil tutulub, nəfəs təntiyir.
Bu torpaqda nələr tapdım, nələri itirdim!
Bu torpağın üstündəki yuxularımda,
Ağappaq örtüyümdə ağappaq gəlin olub,
tutulub-dolub,
bir rüzgarın tilsiminə əsir düşdüm.
Bir çiskini yağış bilib, bihudə üşüdüm.
...Bu torpağın üstündən Araz adlı bir çay axar -
Qubar dolu suyundan hönkürüb şərbət içmişəm.
Kənarında dəmir çəpər var!
Bu çəpərin küncündə
ölmək üçün
üç arşın yer seçmişəm.
Bu çəpərin küncündə atamın ləpirləri!
Bu çəpərin küncündə anamın həsrət əlləri!
Bu torpaqda nələr tapdım, nələri itirdim.
Bu torpağın üstündə bir qoşa məzar var -
Bürünüb göz yaşına,
sərilib soyuq daşına,
bu candan ruh çıxınca,
tabım, tavanım çatınca
içim yanar, yaxılar.
Biri atam, biri anam!
Vardı, vardı! Vallah, vardı!...
Hər ikisin bir uzun, zalım yuxu apardı.
Əlim əllərindən qəfilcə düşdü.
Yerdə qalan nə idi ki! Uşaq könlüm!
O da fəğan qoparıb,
haqsızlıqdan büzüşdü...
Bu torpağın içindəki yuxularımdan
zərif, kövrək, bir ağappaq ömür sürüşdü...
qara sellər apardı...
Bu torpaqda nələr tapdım, nələri itirdim!

*1983*

### *Qəfəs bülbülü*

...Pulum olmasaydı,
ala bilərdimmi
bu qəfəs bülbülünü?
Düz bir il əqdəm
itiribmiş
çəmənini, gülünü.
Bir mahir ovçunun
şikarı bülbül!
El içində sevdalı eşqinin
aşkarı bülbül!
Uç, uç!
Aldım bu qəfəsi,
açdım bu qəfəsi,
Açdım və buraxdım səni.
Uç, uç!
Geniş ormanlar yaxşıdır.
Baxma ki, pələngi, aslanı var.
Uç, uç!
Ormanlar bir yaşıl nağılın yağışıdır...
Pulum çatdı
bu biricik qəfəs azadlığına.
Və əgər,
İşdi-şayəd,
pulum daha çox olarsa,
onda açıb buraxacam
dünyadakı
bütün
haqsız
qəfəs düçarlarını!

*1979*

### *Məni mənə vermədilər*

Nə dərd, nə ələm bildilər,
Nə istədim vermədilər.
Əslində nə istədim ki?
Düzləri görmək istədim -
ürək üçün.
Bir veyil külək istədim -
seyr edib, azadə nəfəs dərib,
asudə ölmək üçün.
Vermədilər.
Qara basdı dünən məni.
Gördüm dağlar sıra-sıra,
buzları büllur sırsıra.
Uzatdım yanar əlimi
dağlar geri çəkildilər,
sırsıralar əriyib, bir-bir suya döndülər.
Yaman pərt düşdü əllərim,
Könlüm bir könül istədi
könlümü kiritməyə.
Quyu suyu istədi
bu susuz ciyərimə
qurtum-qurtum çəkməyə.
Bir ovuc torpaq... istədi
sinəm ilə bərabər
dərdlərinə çökməyə!
Vermədilər...
...Lənət sənə kor şeytan,
yenə tər gəldi alnıma,
cümlə-cahan şəyatinlər
yenə hardan yığışdılar,
doluşdular dörd yanıma?
"Sətəlcəmsən, balamcan!
Biz verən yox, alanıq,
Mən ölüm, biz dünyanı,
sarıyıb dolayanıq!"
deyib, çənəmi dartdılar.
Əlimdə çörəyim vardı,
çırtıq vurub, çəpik çalıb,
tutub, çəkib aldılar,
ələk-vələk eyləyib
evimi dağıtdılar,
o ki var ağlatdılar.
Buynuzum varmış demə,
"Bu ot, bu da ki ovlaq!
Buyur, yaşa! - dedilər,
Naşükürlük eyləmə,
Neyçün ki, balam canı,
adamsızsan, adamsız!
Başını sal aşağı, otla başacan, bala!" -
gülüb əldən getdilər.
Cırcındırmış üst-başım,
bir az kənar çəkildilər,
dönüb "səfil!" də dedilər,
bərəldib dəmbə gözlərin
dil çıxarıb, əl eyləyib
əkildilər, getdilər.
Əl uzatdım, yalvardım,
çağırdım hey... qarı dünya,
nəyim vardı aldılar!..
Səsim yayıldı dəryaya,
bir avarsız, sükansız,
bir bəyaz gəmi gəldi,
Atıldım minəm içinə
çəkim havada qaldı! -
Məni mənə vermədilər.
Qısıldı səsim özümə,
kimsə çəkib apardı!..
...Üzdü qarabasmalar, vahimə, röyalar məni.
Xof bürüdü dünyamı...
Yol istədim, at istədim,
bir bəyaz həyat istədim.
Yollarımı hördülər məni mənə vermədilər.
Məni məndən aldılar, məni mənə vermədilər.
Hey yandım, hey çırpındım,
çırpındım fəğan eylədim,
Vermədilər, vermədilər,
məni məndə görmədilər.
məni mənə vermədilər.

*1984*

### *Bakı-Təbriz bayatıları*

Dağların dağı varmış,
Qarası, ağı varmış.
Əl vurmayın, kövrələr
Bir gözəl çağı varmış.

Hisdi, bu dağlarındı,
Sisdi, bu dağlarındı.
Deməyin biganədi,
Tüstü bu dağlarındı.

Nənəm, nağılın vardı,
demədin, qar apardı.
Əllərimi əlindən
acı rüzgar qopardı...

Vay sizi, uca dağlar,
Qocadan qoca dağlar!
Niyə susub durmusuz,
Ahı doyunca dağlar?...

Qəmdən üzüldü bu can.
Ürəyim oldu şan-şan.
Anamdır, qərib ölür
Aman əcəl, bir dayan!...

Bu cığır hayanadı,
Arazdan o yanadı.
Tanrım! Bir cüt qanad ver,
Bu quş məni yandırdı.

Təbriz qədim, köhnədir,
Cahanda bir dənədir.
Əllərim həsrət çəkir
Dağı, daşı göynədir.

Təbrizdə dayım yaşar,
Rəssamdır fırçası var.
Rəsmində rüzgar əsər
Bulud ağlar, sel aşar.

Torpaq cadar oldu ki!
Yollar qabar oldu ki!
Həsrət nə uzun çəkdi
Ürək qubar oldu ki!

*1980*

### *Daha çağırma*

*Mədinə Gülgünə*

Torpaq məni tez basacaq bağrına,
Baxmayacaq hicranıma, ağrıma.
O yerlərə ayaq bassan, çağırma -
Çağırma, Gülgünüm, daha çağırma,
Övliya Gülgünüm, gülüm, çağırma!
Bu çəpərin naməlləri sel imiş,
İki gözüm iki yekə göl imüş.
Bu ayrılıq deyil, başqa fel imiş -
Qəhr etmişəm, daha məni çağırma,
Çağırma, Gülgünüm, daha çağırma!
Axı mən nə deyim, belə naxışa,
Tutub məni ucdantutma yağışa.
İslanmışam, bəlkə yağış yığışa? -
Faydası yox, göydəkini çağırma,
Çağırma, Gülgünüm, vallah çağırma.
Anamın Sabiri, Kərimi orda,
Yol çəkən gözləri gömüldü burda.
Çatmadı qolları bir daha yurda -
Bir nəzər sal öncə mənim bağrıma,
Qan olubdur, daha məni çağırma!
Gecə keçər, ay üşüyər zikrimdən
Hara yığım bir bu qədər fikri mən.
Qürub çağı dağlar qopar fikrimdən
Kim oyanar qərib səsə?... Çağırma!
Dünya səni eşitmirsə, çağırma,
Çağırma, Gülgünüm, daha çağırma!

*1983*

### *Çağırıb, çağırıb gediblər*

O gedən,
saraydır...
Yeriyir, yıxılır, itib-batır dumanda,
Qalxır, yenə ağarır, yeriyir,
dərd verir...
O gedən haraydır!..
Yaxılır, dağılır, itib-batır dumanda,
oyanır, çağırır çən içi!.. Dərd verir...
O gedən
gedənlərimdir mənim!
Mehrabım, dərgahım,
şəhrü-yarım, həmşərim,
Həmşəhərli didələrim,
dədələrimdirlər mənim...
Gedənlər
könül abidələrim!-
səcdəgahım, can evim, tayfam-tuyfam,
qollarım, bədənim, əllərimdirlər mənim!..
Ah, eyvah!..
Çağırıb, çağırıb... gediblər.

### *Ürəyimi eşit, dünya*

Dünya çiyinlərimdə,
çiynim dünyadan ağır,
endirdim başımı çiynimin üstə,
gördüm qollarım yoxdur.
İki qolum - iki budaq.
İki qolum ikisi də dirəndilər göy üzünə...
Baxdım, bədən torpaq üstə,
iki qolum ikisi də
üzür keçir göy üzündən.
Ürəyimi eşit, dünya!
Qollarım hövl eyləmiş,
Torpaq iki haçadır,
Körpü heyrət içində,
Məftillər qocalıbdır.
Gör haçandır
iki yol arasında
qollar naçar qalıbdır!
Dünya! Mənə həyan ol,
Göyləri səksəndirmə,
qollarım yol gedəsidir,
Onu həsrət uçurub,
qollarıma ana ol,
qollarım yorulubdur,
qollarımı ovundur!
Dünya, mənə yiyə dur!
O sahilə... baxınca
ürəyim suya dönür,
Bədən qolsuz çırpınır,
yerə-göyə sığınmır,
Dağlar boy vermir mənə,
barı allah göyündə
qollarıma yol eylə!
Dünya, özün cavab ver!
Mənim bədənsiz qollarım
gül-çiçək çələngini
görən necə tutacaq?
Dönüb bir cüt quş olunca
ağarıb göy üzündə
bədənsiz necə uçacaq?
Ömrü darda, başı qalda,
o təklənən torpağımı...
görən, havax, hansı üzlə
hansı təşviş içində...
necə, nə cür qucacaq?!...

*1990*